BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2005

# TARİX

*Kürəkçay müqavilələrinin*
*200 illiyinə dair*

## KÜRƏKÇAY MÜQAVİLƏSİ: HİMAYƏYƏ KEÇMƏ, YAXUD QARABAĞ FACİƏSİNİN BAŞLANĞICI

T.T.MUSTAFAZADƏ

Bu il – (2005-ci il) mayın 26-da Qarabağ xanlığının, iyunun 2-də isə Şəki xanlığının Rusiya himayəsinə keçməsi haqqında müqavilələrin bağlanmasının 200 ili tamam olur. Həmin müqavilələr Azərbaycan torpaqlarının Rusiya imperiyası tərəfindən qəsb olunmasında, sonradan Azərbaycanın müstəmləkəyə çevrilməsində mühüm addım olmuşdur. Şimali Azərbaycanın Rusiya tərəfindən istilası yalnız ölkəmizin öz siyasi müstəqilliyini itirərək müstəmləkəyə çevrilməsi baxımından deyil, həm də əzəli Azərbaycan torpaqlarında ermənilərin yerləşdirilib, gələcək erməni dövləti yaratmaq üçün dayaq məntəqələri yaradılması səbəbindən tariximizdə baş vermiş böyük faciələrdən biridir.

Buna görə də biz belə hesab edirik ki, bu müqavilələrin bağlanmasından 200 il keçsə də müqavilələrin bağlanmasının tarixi şəraiti, həmin müqavilələrin şərtlərini öyrənmək bu gün də öz aktuallığını itirmir. Biz qeyd olunan məsələlərin işıqlandırılmasına keçməzdən öncə Qarabağ xanlığının özü haqqında oxucuda təsəvvür yaratmaq istərdik. Məlumdur ki, XVIII əsrin ortalarında Nadir şah əfşar imperiyasının dağılması nəticəsində yaranan Azərbaycan xanlıqları içərisində isə ərazisinin böyüklüyünə, əhalisinin çoxluğuna, hərbi qüdrətinə görə Qarabağ xanlığı çox mühüm mövqeyə malik olmuşdur.

Qarabağ xanlığının Azərbaycanın dövlətçilik tarixində əhəmiyyəti ilk növbədə onunla izah oluna bilər ki, bu xanlıq Azərbaycanın əzəli tərkib hissəsi olan və indi bədnam qonşularımızın təcavüz obyektinə çevrilmiş Qarabağ ərazisində Azərbaycan-Türk dövlətçiliyi təsisatları və ənənələrini qoruyub saxlayaraq inkişaf etdirmişdir. Məlumdur ki, Qarabağ ərazisi qədim Azərbaycan dövləti Albaniyanın Uti və Arsax vilayətlərini təşkil etmiş, ərəb

işğalı dövründə Arsax vilayəti kimi tanınmışdır. Tədqiqatçılar Qarabağ adının XII əsrdə meydana çıxdığını yazaraq onu «peçeneq-kəngər» tayfalarının bir qolu olan «qarabay»lar adı ilə əlaqələndirirlər (Qeybullayev, 96-99).

Üzdəniraq erməni tarixçiləri iddia edirlər ki, guya türk tayfaları XVIII əsrdə bu əraziyə gəlib və Qarabağ xanlığını yaratmışlar. Guya burada erməni dövlət qurumları olan məlikliklər mövcud idi və bu məlikləri Qarabağ xanları heç vaxt özlərinə tabe edə bilməmişlər (сокровища, 20). əslində isə Azərbaycan türkləri Qarabağın həm düzən, həm də dağlıq hissəsində qədimdən yaşamışlar və hətta Qarabağın dağlıq hissəsində kəndlərin çox böyük əksəriyyətinin türk mənşəli olması (cəmi 2 kəndin adı erməni mənşəli idi) buna parlaq sübutdur. Digər tərəfdən Qarabağın dağlıq hissəsindəki məliklərə gəldikdə isə əvvəla onların mənşəyi ermənilərlə yox xristian albanlarla bağlı olmuşdur, ikincisi onlar müstəqil dövlət qurumları olmayıb sadəcə irsi feodal malikanələri idilər. Xanlıq dövründə isə xristian məlikləri xanlığın digər 21 mahalı kimi adi mahallar olub, hakimləri mahal hakimləri sayılırdı.

Qarabağ xanlığı heç də boş yerdə yox, yerli türk-müsəlman siyasi qurum və etnik zəminində yaranıb inkişaf etmişdir. Xanlıq Səfəvilər dövründə mövcud olmuş mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyliyinin zəminində yaranmış və onun ərazisinin əsas hissəsini əhatə etmişdir. Qarabağ bəylərbəyliyi Araz və Kür çayları arasında qərbdə Samxet dağları, Debede çayı və Göyçə gölünə kimi uzanan geniş bir ərazini əhatə etmişdir. Bəylərbəyliyin tərkibinə Bərdə kimi qədim şəhər, Ağstafabad (indiki Ağstafa), Bərgüşad, Arazbar, Cavanşir və digər mahallar daxil idi (Osmanlı, 19-20). Qarabağ bəylərbəyisi vəzifəsinə adətən Səfəvilərin hakimiyyətə gəlməsinə kömək etmiş qızılbaş tayfalarından biri – qacar tayfasından olan Ziyadoğulları təyin olunurdu. İlk Qarabağ bəylərbəyi Şahverdi xan Ziyadoğlu olmuşdur (Raxmani, 88).

Məlum olduğu kimi məşhur sərkərdə - Azərbaycan türk əfşar tayfasından olan Nadir 1736-cı ildə Səfəviləri hakimiyyətdən kənarlaşdırıb, Muğan qurultayında özünü şah «seçdirdiyi» zaman Ziyadoğlular və bir sıra başqa azərbaycanlı tayfa başçıları buna qarşı çıxış etmişdilər. Nadir şah Qazax və Borçalı elatlarını qisas kimi Qarabağ bəylərbəylərinin tabeliyindən çıxarıb Kartli çarının tabeçiliyinə keçirmişdi. O, eyni zamanda Qarabağda yaşayan Gavanşir, Otuziki və Kəbirli tayfa birləşmələrini də müxalif mövqedə dayandıqları üçün cəzalandırdı, bir çox ailəni Xorasanın Şərəxs mahalına köçürdü. Qarabağın dağlıq hissəsində yaşayan məliklərə əmr etdi ki, Qarabağ bəylərbəylinə deyil, onun özünə yaxud Azərbaycan bəylərbəyi təyin etdiyi qardaşı İbrahimxəlil xana tabe olsunlar (Mirzə Adıgözəl bəy, 30).

Qarabağ xanlığının əsasını qoyan Pənah Əli xanın sələfləri və onun mənsub olduğu Sarıcalı oymağı Qarabağın qədim sakinlərindən idi. Sarıcalı oymağı Otuzikilər tayfa birləşməsinə daxil olan Cavanşir tayfasına mənsub idi. Tarixi əsərlərə görə bu oymağın adı onun əsasını qoyan Əlibəyin kürən (sarı) olması ilə bağlı idi. Düşmən cəbhənin tarixçiləri iddia edirlər ki, Qarabağ xanlığının banisi Pənah Əli bəy adicə quldur olmuşdur. Halbuki, Sa-

rıca Əlinin nəvəsi Fəzləli bəy Nadir şahın sarayında eşikağası vəzifəsində çalışırdı (Mirzə. Adıgözəl bəy, 30).

Qarabağ xanlığının Azərbaycan tarixində buraxdığı mühüm izlərdən biri də Şuşa kimi alınmaz qala şəhəri meydana gətirməsindən ibarətdir. Əgər digər xanlıqların hər biri hər hansısa bir şəhərin ətrafında təşəkkül tapmışdısa, Qarabağ xanlığının ərazisində mərkəz, təhlükə zamanı isə sığınacaq rolunu oynaya biləcək əhəmiyyətli bir yaşayış məskəni yox idi. Ona görə də əvvəlcə Kəbirli mahalında Bayat qalası, 1752-ci ildə Tərnəkütdə Şahbulağı adı ilə tanınan qala inşa edilmişdi (Mirzə Adıgözəl bəy, 36-37). Daha sonra isə Pənahabad (sonralar Şuşa) qalası salınmışdır.

Mirzə Camalın yazdığına görə Şuşa qalasının inşası təxminən 1756-cı ildə başa çatmış,[1] həmin il Şahbulağı qalasının sakinləri, elləri və bir neçə kəndlərin kəndxudaları ailələrini köçürüb, bu qalanın içində yerləşdirmişdi (Mirzə Camal, 116).

Qarabağ xanlığının tarixi əhəmiyyəti həm də onun müstəqil dövlətçiliyi qorumaq üçün göstərdiyi qəhrəmanlıq mübarizəsindədir. Məlumdur ki, XVIII əsrin 80-90-cı illərində şah taxtı uğrunda mübarizədə qalib gəlmiş Ağa Məhəmməd xan Qacar Səfəvi imperiyasının sərhədlərinə daxil olmuş bütün əraziləri özünün qurduğu yeni dövlətin tərkibinə daxil etməyə çalışırdı. Bu məqsədlə də Cənubi Qafqazın müstəqil hakimlərini özünə tabe etmək

---

[1] Qeyd: Şuşa qalasının salınması haqqında bəzi fikir müxtəliflikləri mövcuddur. «Qarabağnamə»lərin 1989-cu ildəki son nəşrinin tərtibçisi prof. N.Axundov hesab edir ki, Qarabağnamələrdə göstərilən 1170-ci il hicri (miladi - 1756-57) tarixi yanlışdır. Çünki, bu tarix, birincisi, Pənah Əli xanın vəfatından cəmi 2-3 il əvvələ aiddir ki, bu da Pənah Əli xanın həyatından olan faktlarla ziddiyyət təşkil edir, ikincisi, tədqiqatçı hesab edir ki, Məhəmmədhəsən xan artıq 1751-ci ildə Qarabağa yürüş edərək Şuşanı mühasirə etmişdir və deməli artıq bu zaman Şuşa qalası tikilmişdi. Beləliklə, belə nəticə çıxarılır ki, Şuşa qalasının əsası da ən geci 1751-ci ilin birinci iki ayı, yaxud 1750-ci ilin ikinci yarısında qoyulmuşdur (Qarabağnamələr, 40-42). Hətta Şuşa şəhərinin tarixini ayrıca tədqiq etmiş G.İsmayılova da bu səhvi təkrar edərək Şuşa şəhərinin əsasının 1750-1751-ci ildə qoyulduğunu iddia edir və şəhərin adının Şüşə sözündən götürüldüyünü yazır (İsmailova, 11).

Lakin qeyd edək ki, burada tədqiqatçının özü də yanlışlığa yol vermişdir. Axı Məmmədhəsən xanın Qarabağa yürüşü 1758-ci ilin yazında və ya ən tezi 1757-ci ildə baş vermişdir (Dəlili, 114). Digər tərəfdən Şahbulağı qalasının tikintisinin 1165-ci hicri ilində (20 noyabr 1751-ci il 7 noyabr 1752-ci il) inşa edildiyini nəzərə alsaq Şuşa qalasının hətta Şahbulağı qalasından da əvvəl və ya onunla bir zamanda qoyulduğu nəticəsi yaranır. Bu isə tamamilə məntiqsizdir, çünki hamı Şahbulağı qalasının əvvəl tikildiyini Şuşa qalasının isə sonra salındığını yazır. Əlbəttə Şuşa qalasının 1756-cı ildə əsasının qoyulduğunu söyləmək də düzgün deyildir. Bu qalanın qoyulması yox, qəti məskunlaşması ilidir. Çünki, əvvəldə qeyd olunduğu kimi bu zaman artıq Şahbulağı qalasından əhalini Şuşaya köçürmüşlər. Şuşa kimi əzəmətli qalanı isə bir neçə günə, bir neçə aya, hətta bir ilə inşa edib qurtarmaq mümkün olmazdı. Deməli qalanın tikintisinə haradasa 1753-1754-cü illər arasında başlanmışdır. Fikrimizcə, Mirzə Camal Qarabağinin «Qarabağnamə»sində Şuşa qalasının inşasının hicri ilə 1170-ci ildə (miladi 1756-1757), xristian təqvimi ilə isə 1754-cü il göstərməsi sadəcə texniki yanlışlıq deyildir, müəllif xristian tarixi ilə qalanın özülünün qoyulması ilini, hicri tarixi ilə isə məskunlaşdırılması ilini göstərmişdir. Şuşa qalası təqribən 3-4 kvadrat versti əhatə edirdi (Lalaən, 2; Əliyev, 48).

Qeyd edək ki, C.Mustafayev də Şuşa qalasının 1750/51-ci ildə deyil, daha sonrakı illərdə salınması mülahizəsini irəli sürmüşdür, bu mülahizəni sübut etmək üçün xeyli tutarlı arqumentlər gətirmişdir (Mustafayev, 40-41). XIX əsrin ortalarına aid dövrü mətbuatın materialları da Şuşa qalasının 1753-1754-cü illər arasında inşasına başlanması fikrini təsdiqləyir. Belə ki, «Kavkaz» qəzetinin 1850-ci ilə aid sayında yazılırdı ki, Şuşadakı məscidin divarında Şuşa şəhərinin 1167-ci il hicri tarixində salındığı yazılmışdır (Kavkaz, 1850, 100). 1850-ci ilə aid «Qafqaz» təqvimində də bu fikir təsdiqlənir: «Pənah xanın Şuşa qalasının özülünü qoyması haqqında şəhərin məscidlərinin birindəki 1167-ci hicri tarixi var». Görünür şəhərin salınması haqqında yazı Şuşa cümə məscidinin divarında həkk olunmuş və sonralar məscid memar Kərbəlayi Səfixan Qarabağlı tərəfindən təmir olunarkən həmin yazı aradan götürülmüşdür.

istəyirdi. Artıq bir sıra Şimali Azərbaycan xanları Qacarın qüvvəsi qarşısında qorxuya düşərək öz itaətlərini bildirmişdilər. Qarabağlı İbrahimxəlil xan isə qətiyyətlə itaət göstərməkdən imtina edirdi.

1795-ci ilin yayında Ağa Məhəmməd xan 33 gün Şuşanı mühasirədə saxlasa da qalanı ala bilməyərək oradan Tiflisə yollanmışdı. Həmin ilin sentyabrında gürcü qoşunlarını darmadağın edən Qacar Tiflisi alaraq yandırıb-yaxmışdı.

1796-cı ildə cənuba çəkilib özünü şah elan edən Ağa Məhəmməd 1797-ci ilin yazında yenidən Qarabağa yürüş etmişdi. Tarixi qaynaqların çoxunda göstərilir ki, əvvəlki yürüş zamanı xeyli viran edlilən Qarabağda bu zaman iqtisadi vəziyyət ağır idi, aclıq təhlükəsi var idi. Buna görə də qalanı təkbaşına müdafiə edə bilməyəcəyini yəqin edən İbrahim xan kömək gətirmək üçün qohumu avarlı Ümmə xanın yanına getmişdi. Bəzi şəhər əyanlarının xəyanəti üzündən qısa mühasirədən sonra Şuşa təslim olmuşdu (Mirzə Adıgözəl bəy).

Ancaq son illərdə çıxan əsərlərin çoxunda fransız müəllifi Jan Gevrin tarixi romanına əsaslanaraq iddia olunur ki, Ağa Məhəmməd şah ikinci dəfə Şuşaya yaxınlaşdığı zaman İbrahim xan şəhərdə idi, müdafiəyə başçılıq edirdi və yalnız kobud bir səhvin üzündən şəhərdən kənarda qalmışdı. Jan Gevrə yazır ki, Ağa Məhəmməd şah Şuşa qalası divarlarının möhkəmləndiyini bildiyindən bütün topların divarların bir nöqtəsini nişan alıb dağıtmasını əmr etmişdi. Jan Gevr yazır ki, İbrahimxəlil xan Qacar qoşunlarının şəhər qalasını dağıtmaq üzrə olduğunu görüb gecə ən qoçaq adamlarından bir dəstə götürüb, xəlvət bir yoldan çıxaraq, şəhəri atəşə tutan topxana üzərinə arxadan hücum elədi. Topçu dəstəsini qırdı və topları xarab etdi. Qarabağ hakimi geri qayıtmaq istəyəndə isə Ağa Məhəmməd şahın əmri ilə yollar bağlandı və məcbur olub şimala getdi (Jan Gevr, 169-172; 5, Cəmşidov). Əlbəttə, Jan Gevrin mülahizəsinə inanmaq bir qədər çətindir. Birincisi, ona görə ki, 70 yaşı olan xanın özünün bilavasitə gecə həmləsində iştirak etməsi inandırıcı görünmür, ikincisi ona görə ki, hələlik bu mübarizəni təsdiqləyən ikinci bir mənbə tapılmayıb.

Ağa Məhəmməd şah ikinci yürüşündə Şuşanı zəbt edə bilsə də, Qarabağ xanlığını ləğv edə bilməmiş, üç gündən sonra buradaca saray sui-qəsdi nəticəsində qətlə yetirilmişdi. XIX əsr tarixçisi Əhməd bəy Cavanşirin yazdığına görə şaha qarşı təşkil olunmuş qəsddən İbrahimxəlil xanın qardaşı oğlu Məhəmməd bəyin də xəbəri varmış, o qəsdin təşkilatçılarından biri Sadıq xan Səddaqinin qohumu idi (Əhməd bəy Cavanşir, 169-179).

Qarabağ xanlığı digər Azərbaycan xanlıqları ilə yanaşı, həm də daha əhəmiyyətli dərəcədə Azərbaycan dövlətçiliyi ənənələrini yaşadaraq davam etdirmişdir.

Xanlıqda dövlətin başında xan dururdu. Tədqiqatçı Leviatov xanın hakimiyyətini xarakterizə edərək belə yazırdı: «bu dövlətə və xana məxsus olan mülklərə fərq qoymayan və onları eyniləşdirən feodal hakimiyyəti idi. Xanlıqlarda olan vəziyyət göstərir ki, onların idarəsi xanların şəxsi mülklərinin idarəsi kimi idi» (Leviatov, 45). İ.Beryozin yazır ki, xan tam müstəqil şəxs idi… O, heç kimdən soruşmadan, heç kimə hesabat vermədən, dərəcə-

sindən asılı olmayaraq kimi istəsə edam edə və bağışlaya, qova və cəzalandıra bilərdi. Xan bütün icra və məhkəmə hakimiyyətini, hətta şəriət-dini qanun işlərini də öz əllərində cəmləşdirmişdi (Beryozin, 45).

Xanın yanında məşvərətçi orqan-divan fəaliyyət göstərirdi. Burada müzakirə edilən hər hansı bir mühüm məsələ ilə bağlı son söz xana məxsus olsa da, bəzi hallarda xan divan üzvlərinin rəyi ilə hesablaşmalı olurdu. Digər xanlıqlara nisbətən Qarabağ xanlığında divan yüksək nüfuza malik idi. Mirzə Adıgözəl bəy Şuşa qalasının əsasının qoyulması məsələləri ilə bağlı yazırdı: «Mərhum Pənah xanın hüzurunda olan əmirlər onun işarəsi ilə belə məsləhət gördülər: ...möhkəm bir yer və meydan tapıb orada şəhər və hasar binasını qoyaq, bürc və divar saldıraq. Düşmənin hücum və sədəməsindən arxayın olaq» (Mirzə Adıgözəl bəy,40). Xandan sonra ali silkin növbəti pilləsini bəylər və məliklər tuturdu. Qarabağ xanlığında isə Vərəndə, Dizaq, Talış, Xaçın və Çiləbörd hakimləri məlik titulu daşıyırdı. Bəy və məlik titulları irsən keçirdi. Lakin bu hüquq hər dəfə xan tərəfindən xüsusi fərmanla təsdiq edilməli idi. Məliklər geniş məhkəmə və inzibati hüquqlara malik idilər.

İbrahimxəlil xan Kürəkçay müqaviləsini imzaladığı zaman varislik və vəliəhdlik adı böyük oğlu Məhəmmədhəsən ağaya verilmişdi. Məhəmmədhəsən ağanın ikinci oğlu girov sifəti ilə Tiflisə Qafqazdakı rus ordusunun baş komandanı general Sisianovun yanına göndərilmişdi. Lakin Məhəmmədhəsən ağa İbrahim Xəlil xanın sağlığında 1806-cı il fevralın 24-də xəstələnib öldüyündən xanın yerdə qalan oğlanları içərisində ən böyüyü general-mayor Mehdiqulu ağa idi. Buna görə də varislik və vəliəhdlik sənədi xanın və Qarabağ əyanlarının möhürü ilə Mehdiqulu ağaya verilmişdi, o, xan və vəliəhd adlandırılmışdı. Buna görə də mayor Lisaneviç İbrahimxəlil xanı qətlə yetirdikdən sonra, general Nesvetsayevə raport yazmış və həmin raporta əsasən 1817-ci ildə çar I Aleksandr Mehdiqulu xana xanlıq fərmanı, hakimiyyət bayrağı və cəvahirlə bəzənmiş qılınc göndərmişdi (Mirzə Camal, 147-148).

İbrahimxəlil xanın hakimiyyəti dövründə vəzir vəzifəsini görkəmli Azərbaycan şairi Molla Pənah Vaqif icra edirdi. Xanın ən yaxın köməkçisi vəzir idi. Qarabağ xanlığında çox zaman vəzirə mirzə deyirdilər. Məlumdur ki, 1797-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşa şəhərində qətlə yetirildikdən sonra müvəqqəti hakimiyyəti ələ keçirmiş xanın qardaşı oğlu Məhəmməd bəy Vaqifdə öz hakimiyyətini möhkəmləndirmək qarşısında bir təhlükə görərək onu edam etdirmişdi. Sonra isə vəzir vəzifəsinə Mirzə Camal təyin olunmuşdu.

Xan sarayında eşikağası, xəzinəağası, ambardarğası, əmiraxur və başqa vəzifələr vardı. Mahalları minbaşılar və məliklər, kəndləri isə darğalar, yüzbaşılar, kovxalar, məliklər, kəndxudalar idarə edirdilər. Əslində minbaşı və yüzbaşı rütbələri hərbi rütbələr idilər. Onlar hərbi əməliyyatlar zamanı min və yüz nəfərlik dəstələrə başçılıq edirdilər. Mahal naibləri həm inzibati, həm də məhkəmə hakimiyyətinə malik idilər. Kəndxudalar və kovxalar kənd icmaları tərəfindən seçilirdilər. Onların başlıca vəzifələri icma

üzərinə düşən vergiləri toplamaqdan və kənddə asayişin qorunmasından ibarət idi.

Darğalar bazara nəzarət edirdilər. Onlar ərzaq məhsullarına qiymətləri təyin edir, mübahisəli məsələlərin həlli zamanı münsif kimi çıxış edirdilər. Darğalar formal olaraq bazar polisi hesab olunsalar da, əslində bütün şəhərdə qayda-qanuna cavabdehlik daşıyırdılar. Şəriət qaydalarına əməl olunmasına da darğalar nəzarət edirdilər. Bu qaydaları pozanları darğanın cəzalandırmaq hüququ vardı (Əliyev. 58-59).

Qarabağ ən böyük hərbi qüvvəsi olan xanlıqlardan idi. Xan hərbi zərurət olduqda 10-15 min döyüşçü toplaya bilirdi (Amirbekova, 26). Siravi qoşunun əsas hissəsini elatlar təşkil edirdi. Mirzə Camal yazır ki, Qarabağın bütün elləri adları dəftər və siyahıda yazılmış atlı qoşundan ibarət idi. Zərurət zamanında mahalların və kəndlərin piyada tüfəngçiləri mahal məlikləri ilə birlikdə qoşun sıralarına alınırdılar (Mirzə Camal, 144 ).

Elatlardan töycü pulu və məhsuldan malcəhət alınmazdı. Lakin mahallardan və kəndlərdən hər il malcəhət və töycü toplanırdı. Hərdən bir Dağıstandan muzdlu qoşun gətirildikdə muzdluların məvacibini ödəmək və muzdlunun ölmüş atının əvəzini vermək üçün ellərdən də töycü pulu, sursat, taxıl, qoyun və mal-qara alınırdı. Adları qoşun və nökər dəftərinə yazılmışlar vergidən azad (maaf) idilər. Onlar xan tərəfindən taxıl, at və başqa lazımi şeylərlə təmin olunurdular. Qoşunun hər bir nökəri bir evə təhkim olunmuşdu. O ev həmin nökər və atlının ehtiyacını təmin etməli idi(Mirzə Camal, 144).

Xanlar xanlığın müdafiə qabiliyyətini gücləndirmək üçün qalalar və istehkamlar inşasına xüsusi diqqət yetirirdilər. Məlum olduğu kimi, Pənahəli xan hakimiyyətinin ilk dövründəcə Bayat və Şahbulağı qalalarını inşa etmişdi. Bayat qalasının ətrafına bişmiş kərpicdən qalın divarlar hörülmüş, divarların ətrafında isə düşmən hücumu zamanı su ilə doldurulması nəzərdə tutulan dərin xəndək qazılmışdı. Şahbulağı qalasının hasarı isə daş və əhəngdən tikilmişdi. Mənbələrin məlumatına görə Şahbulağında iki qəsr-içqala və xarici qala var idi. V.Pottonun redaktorluğu ilə hazırlanmış kitabda daxili qəsrin 1901-ci ildə çəkilmiş planı verilmişdir (Potto, 208). İç qəsr təpənin üstündə gur bulaqların yanında salınmışdı. Pənahəli xanın iqamətgahı yonulmamış daşlardan düzbucaqlı, 8 pilləli şəkildə tikilmişdi. Möhkəm və hündür divarları vardı (Avalov, 11).

Şahbulağı qalasında iki qəsr var idi: biri içəri, digəri xarici. Xarici qüllələr və divarlar qalxdıqca daralır və ucları diş-diş idi. Hasarların hündürlüyü 7, qüllələrin hündürlüyü isə 8,5 metrə çatırdı.

Xanlığın ən etibarlı qalası, əlbəttə, Pənahabad (Şuşa) qalası idi. Şuşanın yerləşdiyi dağ yuxarısı kəsilmiş konus formasındadır, şimal tərəfdən terraslarla alçalır. Şuşa Daşaltıçay və Xəlfəliçaya kəskin enişi olan dərələrlə əhatə olunub. Təpənin kəskin yarğanları düşmən hücumuna qarşı güclü maneə yaradırdı və şəhərin müdafiə perimetrinin demək olar ki, üçdə iki hissəsini təşkil edirdi.

Pənahəli xan qalanın müdafiəsini daha etibarlı etmək üçün şimal tərəfdə hasar inşa etdirdi. Ancaq güman ki, bu divar çox tələsik tikildiyinə görə tez bir zamanda yararsız hala düşmüşdü (Mustafayev, 136).

Şuşa qala divarlarının möhkəmliyi Ağa Məhəmməd şah Qacarın hücumları zamanı çox ciddi sınaqlardan uğurla keçmişdi. Belə ki, adi top güllələrinin qala divarlarına heç təsir göstərmədiyini görən Qacar ən mahir artilleriya mütəxəssislərindən birinin məsləhəti ilə əmr etmişdi ki, iki top gülləsini millə bir-birinə bağlayıb atsınlar. Yalnız bu yolla qala divarlarına müəyyən zərər vurmaq mümkün olmuşdu (Amirbekova, 26).

Şuşanın qala divarları 2.5 km uzunluğuna malik olub, daşdan və əhəngdən hörülmüşdü. Şuşaya giriş dörd darvazadan həyata keçirilirdi. Darvazalardan biri Gəncə qapısı, digəri İrəvan qapısı, üçüncüsü Ağoğlan qapısı adlanırdı. Dördüncü qapının adı və yeri məlum deyil. Gəncə qapısı şimal tərəfdə, İrəvan qapısı qərb tərəfdə, Ağoğlan qapısı şərq tərəfdə yerləşirdi (Avalov, 32). Gəncə qapıları əsas darvaza idi, hələ Pənahəli xanın dövründə tikilmişdi, buradan Gəncəyə, eləcə də Çiləbörd mahalına yol başlayırdı. Buna görə də bəzən onu Çiləbörd qapısı da adlandırırdılar. İrəvan qapısından Xəlifəliyə yol başlanırdı (buna görə də onu Xəlifə qapısı da adlandırırdılar). Ağoğlan qapısından Ağoğlan qalasına yol başlayırdı. Bu darvazanı həm də bəzən Şuşakənd, yaxud Muxtar qapısı, bəzən də Topxana qapısı adlandırırdılar (Avalov, 36).

Şuşanın yolu üstündə də iki qala-Ağoğlan və Əskəran qalaları inşa edilmişdi. Şuşadan 25 km aralı Qarqarçayın sahilində salınmış möhkəm və möhtəşəm Əskəran qalası paytaxtı ovalıq tərəfdən hücumdan qoruyurdu. Əskəran qalası çayın hər iki tərəfində salınmışdı. Divarlarının hündürlüyü 8 m-ə, qalınlığı isə 2 m-ə çatırdı. Hətta çayın yatağında iki qüllə var idi. Qarqarçayın sahili burada elə sıldırımdır ki, Əskəran qalasından yan ötərək keçmək mümkün deyil.

İndi də Qarabağ xanlığının Rusiya təbəəliyinə keçməsinin tarixi şəraitinə və himayəyə keçmək haqqında müqavilənin şərtlərinə nəzər salaq.

XVIII əsrin 80-cı illərindən Qarabağ xanlığı bir çox digər Azərbaycan xanlıqları kimi Rus dövlətinin işğalçılıq siyasətinin diqqət obyektinə düşür. Azərbaycan xanlıqları rus hökümətinin diqqətini ilk növbədə xammal mənbəyi, satış bazarı kimi cəlb edirdi. O zaman Azərbaycandan Rusiyaya əsasən xam ipək və parçalar, həmçinin pambıq, pambıq iplikər və parçalar, palaz, xalı, qırmızı boya, qoyun dərisi, düyü, quru meyvə, balıq, kürü və s. ixrac olunurdu (QAAO f. 394, iş. 5509, v. 103, 107, 125-130; f. 18, v. 120 a.ü.-128; PQADA, f.397, iş. 335, v. 12, 25, 32-41, f. 276, iş 649, v. 3-57, Abdullaev, 414). Rusiyadan Azərbaycana isə qaçaqmalçılıq yolu ilə gətirilən mallar da daxil olmaqla məxmər, parçalar, tafta, atlas, qızıl, mismar, iynə, mis qab-qacaq, polad və dəmir, balta, bıçaqlar, məftil, alman civəsi, çuqun lövhələr, sandıqlar, kağız, ağardıcı, dəri məmulatı, şüşə, sabun, mətbəx avadanlığı, büllur qablar, bal, şəkər, un, müxtəlif boyalar, eynəklər və. s. gətirilirdi (PQVİA, f. VUA, iş 18474, v 31-32, PFAPAN, f. 36, iş 553).

Göründüyü kimi, Azərbaycandan Rusiyaya əsasən manufakturalar üçün xammal, Rusiyadan Azərbaycana isə sənaye məmulatı gətirilirdi. Bun-

ların çoxunu İngiltərə, Hollandiya və İspaniyadan gətirilən mallar təşkil edirdi (Pokrovekski, 104), Çünki bu dövrdə Rusiya iqtisadi cəhətdən az inkişaf etmiş ölkə idi. Rus-Azərbaycan ticarətində balans Rusiyanın xeyrinə idi.

XVIII əsrin ikinci yarısında Xəzəryanı regionda xam ipək və satış bazarları üstündə kəskin rəqabət gedirdi. Rusiyanın ticarət siyasətinin əsas məqsədi rus ticarət kapitalı üçün inhisar vəziyyətinə nail olmaqdan ibarət idi. Buna nail olmaq üçün rus höküməti hərbi səciyyəli tədbirlərə əl atmağa belə hazır idi. 80-cı illərin əvvəllərində Azərbaycanın və İranın Xəzəryanı ərazilərinə yürüş planı irəli sürüldü. Rəsmi açıqlamada deyilirdi ki, guya ticarəti təmin etmək üçün, rus tacirlərini sıxışdıran Bakı və Gilan xanlıqlarını cəzalandırmaq üçün kiçk bir ekspedisiya təşkil olunur (Padunq, 557). Əslində isə məqsədlər tamamilə ayrı idi.

Nəzərdə tutulan yürüşün başçısı təyin olunmuş general A.Suvorov öz dostu P.N. Turçeninə məktubda yazırdı: «Mən o generalam ki, İranı tutmağa gedir (Письма, 196)».

Suvorov yürüşə hazırlaşmaq üçün Həştərxana gəldi. Azərbaycan şəhərləri və xanlıqların qüvvələri haqqında kəşfiyyat məlumatları toplanırdı. Onların içərisində Şuşa haqqında da məlumat vardı. Deyilirdi ki, Şuşa böyük, daş hasarları olan möhkəm şəhərdir, burada 50 böyük və xırda top vardır (PFA-RAN, f. İş. 13, v. 54-55).

Yürüşün hazırlanması haqqında xəbərlər Osmanlı sarayında ciddi narahatlıq doğurduğundan və Rusiya hələlik əsas diqqətini Krımı zəbt etməyə yönəltdiyindən Suvorov Kubandakı korpusun komandanı vəzifəsinə keçirildi. Həştərxanda onu 2-ci dərəcəli kapitan M.Voynoviç əvəz etdi. Tezliklə rus hökümət öz planlarında dəyişiklik etdi və hələlik kiçik dəniz ekspedisiyası həyata keçirməklə kifayətlənməyi qərara aldı. Ekspedisiya əvvəlcə Astrabad körfəzinə yönəldi və 1781-ci il mayın 26-da ora çatdı. Voynoviç Qardovin adlanan yeri rus ticarət faktoriyası salmaq üçün seçdi (Padinq, 38).

Ancaq Ağa Məhəmməd şah Qacarın güclənməsi ilə regionda siyası vəziyyətin kəskin şəkildə mürəkkəbləşməsi üzündən ruslar Xəzər dənizinin cənub-şərq sahillində möhkəmlənə bilmədilər. Ağa Məhəmməd xanın adamları Voynoviçin ekspedisiyasının bir necə nəfərini həbs etdilər və rusları çıxıb getmək məcburiyyətində qoydular.

Ancaq rus hökuməti Azərbaycan və İrana qarşı geniş planlarından əl çəkməmişdi. Q.Potyomkin Cənubi Qafqazda bufer dövləti yaratmaq istəyirdi. Şimali Azərbaycan ərazisində qədim ad-Albaniya adı altında xristian dövləti yaratmaq planlaşdırılırdı. 1783-cü ildə rus hökuməti yeni, daha irimiqyaslı yürüşə hazırlığa başladı. Volqanın mənsəbinə hərbi gəmilər toplandı (Астраханский порт, 4). Astrabad, Ənzəli və Bakıda da hazır vəziyyətdə hərbi gəmilər toplanmışdı. 1783-cü ilin iyununda qoşunlar hərəkətə başladılar, lakin Kubanda başlamış iqtişaşlar yenə də yürüşün gerçəkləşdirilməsinə imkan vermədilər (Маркова, 115; Абдуллаев (1958), 113).

Gerçəkləşdirilməmiş yürüşün məqsədi Xəzəryanı zolağı ələ keçirib bütün Azərbaycanı zəbt etməyə zəmin yaratmaqdan ibarət idi. Rusiyanın dövlət katibi olmuş A.P.Xrapovitski öz memuarlarında yazmışdır.

«Sandıqdan knyaz Potyomkin Tavriçevskinin İran iqtişaşlarından faydalanaraq Bakı və Dərbəndi tutmaq və Gilanı birləşdirmək, zəbt olunmuş ərazini gələcək böyük knyaz Konstantin Pavloviçə çatmaq üçün Albaniya adlandırmaq barədə layihəsini tapdım və oxudum» (Памятные записки, 37).

Xarici işlər Kollegiyasının başçısı N.A.Bezborodkonun təklifinə əsasən rus qoşunları iki tərəfdən-Dərbənddən və Gürcüstandan Cənubi Qafqaza daxil olmalı idilər. Dərbənddən keçən qoşunlar Ənzəliyə kimi olan Xəzəryanı ərazini tutmalı, Gürcüsitandan keçən dəstə isə Qarabağ və İrəvan xanlıqlarına həmlə etməli di. Cənubi Qafqazın xristian əhalisini öz tərəfinə çəkmək üçün rus hökuməti şaiyə yaydı ki, guya yürüşün məqsədi «Ermənistan»ı bərpa etməkdir (История, 429, Русский Архив, 266).

Lakin knyaz qarabağlı İbrahimxəlil xanı devirmək barədə II Yekaterinanın konkret göstərişinə malik olmadığından general Potyomkinə tapşırdı ki, hələlik xanı Rusiyaya tabe olmağa həvəsləndirsin. Knyaz bununla yanaşı hesab edirdi ki, məqam düşən kimi Qarabağda erməni hökuməti yaratmaq və bununla da Asiyada xristian dövlətini bərpa etmək olar. Q.Potyomkin İbrahim Xəlil xanı devirməyə hazırlaşır, digər yandan da generala tapşırırdı ki, Qubalı Fətəli xana qarşı mübarizədə İbrahimxəlil xandan istifadə etsin (PQVİA, f. 52, siy. 2, iş 321, v. 1a.ü)

Knyaz Q.A.Potyomkin 1784-cü ildə II Yekaterinaya yazırdı ki, öz adamın Qarabağ və Qaradağa göndərmişdir ki, o, orada xristianlara təlqin etsin ki, onlar yalnız rus dövlətinin himayəsini qəbul etmək yolu ilə «müsəlman zülmündən xilas ola bilərlər». Potyomkin imperatriçəyə qarabağlı İbrahimxəlil xanın nümayəndəsinin gəlib xanın rus himayəsini qəbul etmək arzusunu bildirdiyini xəbər verərək qeyd edirdi ki, bu Azərbaycanın Rusiya tərəfindən işğal olunması planlarına ziddir. İmperatriçə arzu edir ki, Qarabağ və Qaradağda hökmdar xristian olsun (AVPRİ, f 77, siy. 6, iş. 469, v. 1 və a.ü).

Yürüşü 1783-cü ilin yazında başlamaq nəzərdə tutulurdu. Yürüşə başçılıq P.S.Potyomkinə tapşırılmışdı. Ancaq hərbi hazırlıqlar vaxtında başa çatdırılmadı və yürüş təxirə salındı. İsfahanlı Əlimurad xandan alınmış təklif də yürüşün təxirə salınmasına vadar etdi. Bu təklifdən rus hökuməti belə nəticə çıxardı ki, Cənubi Qafqaz torpaqlarını silah tətbiq etmədən ələ keçirmək olar. Əlimurad xan öz hakimiyyətini bütün İrana və Azərbaycanın cənub hissəsinə yaymaq üçün xaricdən köməyə ehtiyac duyurdu və bu köməyi Rusiyadan almaq ümidində idi. Bu məqsədlə də Şimali Azərbaycana iddialardan Rusiyanın xeyrinə əl çəkməyi qərara aldı. Əlimurad xanın Qafqazdakı rus qoşunları xəttinə gəlmiş nümayəndəsi bildirdi ki, Əlimurad xan imperatiçəyə faydalı şərtlər əsasında ittifaq bağlamaq üçün Rusiyaya elçilik göndərmək istəyir (PQVİA, f. 52, siy. 2, iş 25, v. 6).

Q.Potyomkin kansler Bezborodkoya məktubunda təklif edirdi ki, Xəzəryanı vilayətləri və «Ermənistan»ı Rusiyaya güzəştə getmək müqabilində Əlimurad xanı İranın hakimi kimi tanımaq olar: «... bundan böyük fayda götürüb dinc yolla Ermənі ölkəsini və Albaniya quberniyasını təşkil edəcək hissəni, habelə İraklinin çarlığını təşkil etmək olar» (RQVİA, f. 52, siy. I, iş 37, v. 63).

Rus hakim dairələri Əlimurad xanın niyyətlərindən xəbər tutub onunla əlaqə yaratmağa tələsdilər. P.S.Potyomkin Q.A.Potyomkinə müraciət edərək Əlimurad xana münasibətdə necə davranmağı məsləhət görməsini xahiş edirdi. Q.A.Potyomkinin razılığını alan P.S.Potyomkin 1783-ci ilin payızında Tokatlovu İsfahana göndərdi. (RQVİA, f. 52, siy. 1, iş. 33, his. 7, v. a.ü.). İlkin danışıqlar başladı.

1784-cü ilin əvvəllərində İsfahana Rusiyanın daha bir nümayəndəsi Yakov Antonov göndərildi (RQADA, Qosarxiv, razryad 15, iş 192, v 55). Danışıqlar zamanı Əlimurad xan heç bir hüququ çatmadığı Şimalı Azərbaycan ərazisinin bir hissəsini Rusiyaya «güzəştə getməyi» vəd etdi. Bu şirnikdirici vəd Rusiyanın ürəyindən oldu. Antonov Əlimurad xanın elçisi Məhəmməd xanla birlikdə Rusiyaya qayıtdı. Əlimurad xan elçisi vasitəsilə bildirdi ki, onun şah taxtına namizədliyinin müdafiə olunması müqabilində rus tacirləri üçün şərait yaratmağa və hətta ərazi güzəştləri etməyə hazırdır (Гаджиева, 15).

A.A.Berborodko II Yekaterinaya məsləhət görürdü ki, Rusiyanın Azərbaycana dair planlarını gerçəkləşdirmək imkanını əldən buraxmasın (RQVİA, f. 52, siy I, iş 331, his. 7, 71). 1784-cü ilin sonunda Yekaterina hökuməti Əlimurad xanın təklifini qəbul etməyə razılaşdı və müqavilə layihəsini hazırlanmaq üçün nümayəndəsi polkovnik V.S.Tamaranı İrana göndərmək qərarına gəldi. (RQVİA, f. 5-2 siy. 1, iş 25, v. 8-9).

Ona verilmiş gizli təlimata əsasən Tamara şəraiti aydınlaşdırmalı və Əlimurad xandan ərazi güzəştləri barədə aydın cavab almalı idi. Təlimatda xüsusi olaraq qeyd olunmuşdu. «Birincisi, o Dərbəndin və başqa yerlərin (hansılar ki, bizə lazımdır və biz onları birləşdirməyi qərara almışıq) bizə mənsubluğunu etiraf etsin, ikincisi o, bizimlə İranın dəqiq sərhədlərini müəyyənləşdirsin, üçüncüsü çar İraklının torpaqlarının sərhədləri bizim rəyimizə uyğun müəyyənləşdirilsin, dördüncüsü Ermənі ölkəsinin müstəqilliyi bərpa olunsun, beşincisi, o torpaqlarda Alban çarlığı, yaxud vilayətinin təşkilinə başlamaq barədə aydın qərar qəbul edilsin (RQVİA, f. 52, siy.1. iş 331, his 7, v. 40).

Lakin Tamara hələ Azərbaycan ərazisində olduğu bir zamanda Əlimurad xanın ölümü barədə xəbər alındığı üçün rus hökümətinin planı baş tutmadı.

İrəlidə qeyd olunmuşdu ki, general Potyomkin melikləri İbrahimxəlil xana qarşı qaldırırdı. Bu cür siyasət öz bəhrəsini verdi. Xan məliklərin Rusiya himayəsini qəbul etməsinə mane olmaq və Qarabağ xanlığının ləğvinə mane olmaq üçün Rusiya zahiri itaət göstərməyi qərara aldı (RQVİA, f. 52, siy 1, iş. 32, v. 37).

Demək lazımdır ki, xanın bu manevri müəyyən qədər nəticə verdi. Türkiyə ilə yaxınlaşan müharibədə İbrahimxəlil xanı devirib özünə qarşı güclü müqavimət yaratmaqdansa, Rusiya xanın zahiri itaətkarlığı ilə kifayətlənməyi üstün tutdu.

1801-ci ildə Kartli-Kaxetiya çarlığını, ilhaq edən Rus dövləti qəti surətdə Azərbaycanı zəbt etmək işinə girişdi. Bu siyasətin icrası 1802-ci ilin sentyabrında Qafqazdakı rus qoşunlarının komandanı təyin edilmiş general R.D.Sisianov oldu. O həddindən artıq qəddar, Azərbaycan xalqına dərin nifrəti olan bir şəxs idi.

1804-cü ilin yanvarında Gəncəni zəbt edən kimi, Sisianov İbrahimxəlil xana məktub yazaraq onu «qorxaq tülkü», «ağacda titrəyən yarpaq» kimi ifadələrlə təhqir edərək xanın danışıqlar haqqında təklifini rədd etdi. Sisianov kinayə ilə yazırdı: «Dünyada harada görünüb ki, qartal milçəklə danışıqlar aparsın, zəif güclüyə itaət etmək üçün yaranmışdır» (AKAK, II, cild, səh. 417, 696).

Bir müddət sonra general İbrahimxəlil xandan Rusiya himayəsəni qəbul etməsini ultimativ tərzdə tələb etdi (AKAK, II c., s). Bu zaman Qarabağ xanlığının daxili vəziyyəti mürəkkəb idi. Ağa Məhəmməd şah Qacarın viranedici yürüşləri nəticəsində xanlığın əhalisi var yoxdan çıxmış, ərzaq məhsullarının qıtlığı hiss olunurdu.

Qarabağ həm Rusiya, həm də Qacarlar dövləti üçün böyük strateji əhəmiyyətə malik idi. Şuşa Qacarlar üçün Cənubi Qafqazın acarı, Rusiya üçün İranın qapısı hesab edilirdi (Əhməd bəy, 182).

Qarabağ xanlığının hərbi gücünü nəzərə alan Sisianov onu diplomatik üsullarla tabe etməyi qərara aldı. O, mayor Lisaneviçi Şuşaya göndərib xanı Rusiya himayəsini qəbul etməyə razı salmağa tapşırdı (AKAK, II c., səh).

Lisaneviç Şuşaya gələn kimi xan nüfuzlu bəyləri də çağırmaqla divan topladı. Altı günlük məsləhətləşmələrdən sonra bütün bəylər Rusiya himayəsini qəbul etmək haqqında təklifi rədd etdilər. Ancaq İbrahimxəlil xan onların rəyi ilə hesablaşmayaraq himayəyə keçmək haqqında müqavilə mətnini qəbul etdi (Dubrovun, 40).

1805-ci il mayın 14 (yeni təqvimdə 26-sı) İbrahimxəlil xan Sisianovun Gəncədən 20 verst aralıda Kürəkçay sahilindəki düşərgəsinə gələrək himayə muqaviləsini imzaladı və sədaqət haqqında andlı öhdəlik götürdü.

Müqavilə giriş və 11 maddədən ibarət idi. Girişdə İbrahimxəlil xan və Sisianov təntənəli şəkildə müqavilə bağladıqlarını bəyan edirdilər.

Muqavilənin birinci maddəsində deyilirdi ki, İbahimxəlil xan İrandan, yaxud hər hansı digər bir dövlətdən asılı olmamağa and içir. İkinci maddəyə görə Rusiya imperatoru özü və varisləri adından İbrahimxəlil xanın və varislərinin hakimiyyətini və mülklərinin bütövlüyünü qorumağı vəd edirdi (AKAK, II c., səh. 1436).

Müqavilənin üçüncü maddəsində xan hakimiyyətinin ötürülməsi qaydası müəyyənləşdirilirdi. Qərara alınırdı ki, İbrahimxəlil xandan sonra hakimiyyət onun böyük oğluna və sonra eyni qaydada keçəcəkdir. Bu zaman yeni xana çarın təcdiq fərmanı verilməli idi. Xan müstəqil xarici siyasətdən imtina edir və Qafqazdakı rus qoşunlarının komandanı ilə əvvəlcədən razı-

laşdırmadan qonşu hakimlərlə əlaqə saxlamamalı idi, əgər onlardan elçilər yaxud məktublar gələrsə mühümlərini baş komandana göndərməli, az mühümləri barədə isə xanın yanında qoyulmuş rus zabiti ilə məslətləşməli idi.

Müqavilənin beşinci maddəsinə görə çar Qafqazdakı rus qoşunlarının komandanı və Gürcüstan baş idarəçisinin adından İbrahimxəlil xanın və onun varislərinin Qarabağ xanlığında hakimiyətini həmişəlik saxlamağı, xanın daxili idarəçilikdə müstəqilliyinə toxunmamağı vəd edirdi (AKAK, II c., səh. 1436). Xanı, onun ailəsini, mülklərini «qorumaq üçün» Şuşada 500 nəfərlik rus hərbi dəstəsi yerləşdirilməli idi. Böyük təhlükə yaranardısa baş komandan əlavə qüvvələr göndərməli idi. Altıncı maddədə deyilirdi ki, Şuşada yerləşdirilən dəstənin bütün xərcləri xanın üstünə düşür.

Səkkizinci maddədə Qarabağ xanının Rusiya xəzinəsinə ödəyəcəyi xəracın miqdarı və ödəmə qaydası müəyyənləşdirilirdi. 8000 əşrəfi (çervon) məbləğində xəracın yarısı fevralın 1-də, digər yarısı isə sentyabrın 1-də ödənilməli idi. Həmin maddədə həm də qeyd edilirdi ki, İbrahimxəlil xan özünün ikinci oğlu Məhəmmədhəsən ağanın böyük oğlu Şükrullahi girov sifətilə Tiflisə göndərir (AKAK, II c., səh. 1436).

Beləliklə, ilk mənbələrin araşdırılması göstərir ki, Qarabağ xanlığı o zaman Azərbaycanda mövcud olmuş xanlıqlar içərisində ən iri və güclü xanlıqlardan olub, müstəqil daxili və xarici siyasət yürüdən dövlət olmuşdur. Lakin qonşu iri dövlətlərin ilk növbədə Rusiya və Qacarlar dövlətinin təcavüz obyektinə çevrilməsi onun mövcudluğunu ciddi təhlükə altına alırdı. İbrahimxəlil xan belə şəraitdə daha güclü rəqibin-Rusiyanın himayəsinə sığınmağı yeganə çıxış yolu hesab edərək bu barədə Kürəkçay müqaviləsini imzalamışdır. Lakin, tarixin sonrakı inkişafı göstərdi ki, bu əslində Qarabağ xanlığının himayəyə alınması yox, Qarabağ faciəsinin başlanğıcı olmuşdur. Çünki, Rusiya nəinki Qarabağda hakim sülalənin hakimiyyətini qorumadı və az sonra onu ləğv etdi, üstəlik xanlıq əhalisinin əksəriyyətini təşkil edən müsəlman türkləri sıxışdırmağa, onların yerinə xaricdən çağırdığı erməniləri yerləşdirməyə başlamışdır.

## ƏDƏBİYYAT


1. Ağamalı Y. Qarabağ xanlığının digər xanlıqlar və qonşu dövlətlərlə münasibətləri. Tar. e.n.dis-si, v., 2003.
2. Baharlı. Əhvalatı Qarabağ // Qarabağnamələr. II kit. (çapa hazırlayanı N.Axundov). B., 1991, s. 270-308.
3. Cəmşidov Ş. İbrahim xan Şuşa qalasını nə üçün tərk etmişdi.// «Azərbaycan gəncləri» qəzeti, 8. VIII. 1974.
4. Dəlili H.Ə. Azərbaycanın cənub xanlıqları XVIII əsrin II yarısında. B., 1979.
5. Əliyev F. Şimali Azərbaycan şəhərləri. B., 1960.
6. Əhməd bəy Cavanşir Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair // Qarabağnamələr. I kit, s. 150-190.
7. Qarabağnamələr. I kitab (capa hazırlayan A.Fərzəliyev). B., 1989.
8. Qeybullayev. Qarabağ (etnik və siyasi tarixinə dair). B., 1990.

9. Mirzə Adıgözəl bəy. Qarabağnamə //Qarabağnamələr. Birinci kitab B., 1989. s.28-102.
10. Mirzə Camal Qarabağı. Qarabağ tarixi.// Qarabağnamələr. I kit, s.106-148.
11. Mustafaev C.M. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. B., 2002.
12. Osmanlı devleti ilk Azərbaycan türk hanlıkları arasındakı münasebetlere dair arşiv belgeleri. (1578-1914) c.1, Ankara, 1992.
13. Jan Cevr. Xacə şah (tarixi roman). II.c., B., 1994.
14. Абдуллаев Г. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Б., 1965.
15. Абдуллаев Г. Из истории северо-восточного Азербайджана (50-80-е гг. XVIII в.). Б., 1958.
16. Авалов Э. Архитектура города Шуши. Б. 1977.
17. Акты, собранные Кавказской Археографической Комиссией (АКАК), под. Ред. Ад. Берже. Т. 2, Тифлис 18.
18. Астраханский порт с 1783 по 1827. «Морской сборник», т. В, №21, СПб. 1865.
19. Амирбекова Н. Вопросы военной истории Азербайджана в период ханства. Б., 2004.
20. Архив Внешней Политики Российской Империи (АВПРИ).
21. Березин И.И. Путешествие по Дагестану и Закавказью. ч. II. Казань, 1880.
22. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. ч.2., СП. 1869.
23. Государственный Архив Астраханской области (ГААД)
24. Исмаилова Г.Н. История города Шуши. АКД. Б., 1987.
25. История Армянского народа. Ереван, 1951. Русский Архив.
26. «Кавказ» газ. 1850, № 100.
27. Лалаян. Шуша // Научный архив Института Истории им. А.Бакыханова НАН Азербайджана инв.381.
28. Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII в. М., 1966.
29. Мустафаев М.М. Экономика Карабахского ханства. Дис. канд. Экон. наук. М., 1952.
30. Памятные записки А.П. Храповицкого //Чтения в императорском обществе истории древностей Российских при Московском 25.
31. Петербургский филиал архива Российской Академии Наук (ПФАРАН).
32. Письма и бумаги героя Суворова (1764-1780 гг.) Петроград, 1916.
33. Радинг. «О происшествиях, случившихся при основании русского селения на берегу астрабадского залива» 1781 г. Журнал МВД, 1839 р.
34. Рахмани А.А. Азербайджан в конце XV и XVII века Б., 1981.
35. Сокровища Арцаха Степанакерт, 2000.
36. Российский Государственный Военно-исторический Архив (РГВИА).
37. Русский Архив (журнал).
38. Утверждение русского владычества на Кавказе. Т.(Под ред. ген. Потто). Тифлис, 1901.

**КЮРАКЧАЙСКИЙ ДОГОВОР:**
**ПЕРЕХОД В ПРОТЕКЦИЮ ИЛИ НАЧАЛО КАРАБАХСКОЙ ТРАГЕДИИ**

**Т.Т.МУСТАФАЗАДЕ**

**АННОТАЦИЯ**

Из образовавшихся в середине XVIII века около 20-и азербайджанских ханств одним из наиболее крупных и сильных было Карабахское ханство. В статье, на основе достоверных первоисточников, показана роль и место этого ханства в политической системе того периода. Исследуются причины и исторические факторы, заставившие Ибрагим хана Гарабахского подписать 14 (26) мая 1805 года Кюракчайский договор о переходе ханства в протекторат России. Подробно проанализированы статьи договора.